# QƏDİM YURDUMUZ QƏRBİ AZƏRBAYCANA QAYITMAQ ZAMANIDIR!

**Aynur Mətləb qızı Səfərli**
*Azərbaycan Respublikası Daxili işlər Nazirliyinin Polis Akademiyasının müəllimi,*
*Filologiya üzrə fəlsəfə doktoru, polis baş leytenantı,*
*AMEA Folklor İnstitutunun dissertantı*
email: seferli_1988@bk.ru

**DOI: https://doi.org/10.5281/zenodo.15078049**

***Xülasə:*** *Məqalədə Azərbaycan türklərinin bir zaman yaşadığı ata-baba yurdları olan Qərbi Azərbaycan torpaqlarından bəhs edilib. Bu torpaqlara qayıdış Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin çıxışlarında daha parlaq şəkildə əks olunub. İrəvana, Göyçəyə, Zəngəzura qayıdış arzularımızın bir zaman gerçək olacağına inanırıq. Çünki bunu təmin edəcək qüdrətli liderimiz, müzəffər sərkərdəmiz və güclü ordumuz var.*
***Açar sözlər:*** *Qərbi Azərbaycan, güclü ordu, türk-oğuz diyarı.*

***Резюме:*** *В статье говорится о землях Западного Азербайджана, где когда-то жили азербайджанские тюрки. Возвращение на эти земли более ярко отразилось в выступлениях Президента Азербайджанской Республики господина Ильхама Алиева. Мы верим, что наши мечты о возвращении в Ереван, Гойче и Зангезур однажды сбудутся. Потому что у нас есть могущественный лидер, победоносный генерал и сильная армия, способная это обеспечить.*
***Ключевые слова:*** *Западный Азербайджан, сильная армия, тюрко-огузская земля.*

***Summary:*** *The article talks about the lands of Western Azerbaijan, where the Azerbaijani Turks once lived. The return to these lands was more vividly reflected in the speeches of the President of the Republic of Azerbaijan Mr. Ilham Aliyev. We believe that our dreams of returning to Yerevan, Goyce, and Zangezur will come true one day. Because we have a powerful leader, a victorious general and a strong army to ensure this.*
***Keywords:*** *Western Azerbaijan, strong army, Turkh-Oghuz land*

*“Türk dünyası böyük dünyadır. Vaxtilə türk dünyasının qədim və ayrılmaz diyarı olan Zəngəzur bölgəsinin Azərbaycandan qoparılıb Ermənistana verilməsi nəticəsində türk dünyası arasında olan coğrafi bağlantı pozulubdur. Xəritəyə baxsaq görərik ki, əgər o tarixi ədalətsizlik törədilməsəydi, bu gün vahid türk dünyası coğrafi baxımdan da bir məkan kimi yaşayacaqdı. Ancaq buna baxmayaraq, bizi birləşdirən təkcə coğrafi koordinatlar deyil, aramızdakı münasibətlər, qardaşlığımız, ortaq keçmişimiz, bu günümüzdür. İyirmi ilə yaxındır ki, ölkələrimiz müstəqil dövlətlər kimi yaşayırlar.”* [4].16 sentyabr 2010-cu ildə İstanbulda keçirilən Türkdilli ölkələrin dövlət başçılarının X zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışından qeyd etdiyimiz bu sözlərdən bir daha aydın olur ki, Böyük Turan ideyasının mədəni xəyaldan siyasi gerçəkliyə çevrildiyi bir dönəmdəyik. Hazırda Azərbaycan türkləri olaraq həyatımızın mühüm bir mərhələsini yaşayırıq. Bu, Qərbi Azərbaycan mərhələsidir. Azərbaycan Respublikasının prezidenti cənab

İlham Əliyevin Qayıdış Konsepsiyasının həyata keçirilməsində hər bir düşüncə adamının, ziyalının da payı olmasını özündə ehtiva edir. Möhtərəm Prezidentimizin Qərbi Azərbaycan məsələsi, əzəli torpaqlara qayıdışla bağlı çağırışlar səsləndirməsinin əsasında yeni milli təfəkkürün, təzələnən diskursun və məfkurə dalğasının düşüncədə və əməldə ifadəsini görmək istəyi dayanır.

Coğrafi-siyasi termin kimi XX yüzilin 90-cı illərindən etibarən dövriyyəyə daxil olan “Qərbi Azərbaycan” anlayışı yazılı ədəbiyyatda daha çox işlənməyə başlamışdır. Günümüzdə coğrafi termin olaraq yaranan Qərbi Azərbaycan (indi Ermənistan adlanan ərazi məhfumu mənasında işlənir) məfhumunu Azərbaycanşünaslıqda ilk dəfə bir termin kimi tarix elmləri doktoru, professor Süleyman Əliyarov işlətmişdir. [5, 58]. Qərbi Azərbaycanla bağlı dəyərli tədqiqatların müəllifi olan alim İbrahim Bayramov “Qərbi Azərbaycan: tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti” adlı kitabında S.Əliyarova istinadən qeyd edir: “*Şırak” adından yaranan anlayış sonralar Şiraküvez, Şırakavan, Şurakel (Şurakil) şəklində işlənmişdir. “Şiröküvəz” (“Şırəkəyəz”?) yazılışı fonetika baxımından Qərbi Azərbaycanda yaşayan soydaşlarımızın işlətdikləri “Dərələyəz”, “Əngəlöyüd” (Əngələyüz) yer adlarının sonluğu ilə uzlaşıb səsləşir*” [3,15]. Qərbi Azərbaycan Dərbənddən Gəngər (indiki İran) körfəzinə, Qara dənizdən Xəzər dənizinə qədər böyük bir ərazini əhatə edən tarixi Azərbaycan torpaqlarının tərkib hissəsi və ən qədim dövrlərdən Türk-Oğuz diyarıdır.

Azərbaycan xalqının tarixi yaddaşında və milli şüurunda əzəli yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarının xatirəsi hər zaman yaşayır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyətli liderliyi sayəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin 23 saatlıq antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra Qərbi Azərbaycandan olan soydaşlarımızın da vaxtilə didərgin salındıqları ata-baba yurdlarına qayıdacağına inamı artıb.

Qərbi Azərbaycan zəngin tarixi, mədəniyyəti, adət-ənənəsi olan tarixi Azərbaycan bölgəsidir. Bu bölgənin dərin kökləri və özünəməxsus siması olan memarlığı, xalq sənəti, musiqi ənənələri formalaşmışdır. Elmə, təhsilə böyük həvəs və hörmət, mütərəqqi mədəniyyətə rəğbət bölgənin insanları arasında görkəmli siyasətçilərin, elm və mədəniyyət xadimlərinin yetişməsinə səbəb olmuşdur. Bu gün Qərbi Azərbaycan adlandırdığımız ərazi əvvəl Çuxursəd bəylərbəyliyi sonra isə Səfəvi dövləti tərkibində olan Azərbaycan torpaqlarıdır. Nadir şahın qətlindən sonra bu ərazidə İrəvan xanlığı yaradılıb. İrəvan xanlığı da birmənalı olaraq Azərbaycan torpaqları olduğuna görə Azərbaycan ərazisidir. 1828-ci il Türkmənçay müqaviləsinə

qədər bu əraziyə gələn səyyahlar, tarixçilər, ticarətlə məşğul olanlar hər biri bu ərazini Azərbaycan ərazisi kimi görüb. Bu ərazidəki bütün tarixi və dini abidələr azərbaycanlı əhaliyə məxsus olub. Həm tarix, həm də məntiq birmənalı şəkildə sübut edir ki, bu torpaqlar Azərbaycan torpaqlarıdır. XX əsrdə erməni millətçilərinin torpaqlarımızın mənimsənilməsinə yönəlmiş düşmənçilik siyasəti, sovet hakimiyyəti tərəfindən həyata keçirilən deportasiyalar Qərbi azərbaycanlıları öz yurd-yuvalarından didərgin salmış və çoxsaylı insan tələfatı ilə nəticələnmişdir. Dövlət başçısı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə Qərbi Azərbaycanın, İrəvanın, Zəngəzurun və Göyçənin tarixi Azərbaycan torpaqları olduğunu vurğulayıb. Ölkə rəhbəri Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündə bu məsələni bir daha bəyan etdi: *“Əfsuslar olsun ki, ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerləyeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Bu binada nümayiş etdirilən, XX əsrin əvvəllərinə təsadüf edən xəritə bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarixboyu Azərbaycan xalqı yaşayıb”* [1]. Ötən illər ərzində ermənilər qəsb etdikləri qədim Azərbaycan torpaqlarında maddi-mədəni irsimizə qarşı da soyqırımı siyasəti həyata keçiriblər, o cümlədən də Qərbi Azərbaycanda. Əzəli torpaqlarımız İrəvana, Zəngəzura, Göyçə mahalına zorla yiyələnən ermənilər özlərinə saxta tarix quraşdırmaq üçün, ilk növbədə, o ərazilərdəki qədim toponimlərimizə hücum ediblər. Yer adlarımızı dəyişdirib uydurma erməni adları qoyublar, türk dilində mövcud olan yer adlarını dəyişdiriblər.

İndiki Ermənistan dövlətinin tərkibində qalmış yurd yerlərimizlə bağlı bəzi məqamları yada salsaq görərik ki, 1747-1828-ci illərdə, çar Rusiyası tərəfindən ilhaq edilənədək mövcud olmuş **İrəvan xanlığı** Azərbaycan dövlətçiliyinin tarixi monolitinin quruculuq və əzəmət nümunəsinin bir təcəssümü idi. O, Qərbi Azərbaycan ərazilərini Ağrıdağ düzündən Göyçə gölü hövzəsinə və Araz çayından qərbə qədər olmaqla 15 rayonu əhatə etmişdir. Xanlıqda aydın inzibati idarəetmə sistemi mövcud idi və burada xalçaçılıq, ticarət, əkinçilik, bağçılıq, tərəvəzçilik, maldarlıqla məşğul olan etnik Azərbaycan türkləri yaşamışlar. Bu tarixi faktdır ki, İrəvan xanlığının ərazisi Rusiya imperiyası tərəfindən istila olunduqdan sonra Türkiyə və İrandan köçürülən ermənilərin hesabına demoqrafik vəziyyətdə ciddi dəyişikliklər baş verdi. Əgər İrəvan və Naxçıvan xanlıqları torpaqlarında yaradılmış Erməni vilayətində 1832-ci ildə 81 min erməni yaşayırdısa və onlardan 50 mindən çoxu 1828-29-cu illərdə buraya köçürülmüşdürsə, 1873-cü ildə artıq adı İrəvan

quberniyası olaraq dəyişdirilmiş bu vilayətdə 221 mindən çox erməni vardı. Beləliklə, qırx il ərzində buradakı ermənilərin sayı təxminən üç dəfə artmışdı. Əlbəttə, bu, təbii artım sayəsində mümkün deyildi. Belə bir demoqrafik mənzərəni yalnız kütləvi köçürmə prosesi yarada bilərdi.

1918-ci ilin mayında Cənubi Qafqazda üç müstəqil dövlət – Azərbaycan, Gürcüstan və Ermənistan Respublikaları yarandı.

Müsəlman (Azərbaycan) Milli Şurası 29 may 1918-ci ildə, yəni Azərbaycan Xalq Cümhuriyyətinin elan edilməsindən bir gün sonra İrəvanın Ermənistan Respublikasına paytaxt olaraq verilməsi barədə qərar qəbul etdi.

Prezident İlham Əliyev 2020-ci il 3 iyun tarixində çıxışında bu barədə bildirmişdi: *“Mən deyəndə ki, İrəvan bizim qədim torpağımızdır, tam həqiqəti deyirəm. Bunu hər kəs bilir. Əgər belə olmasaydı, Azərbaycan Xalq Cümhuriyyəti nə üçün qərar qəbul edib ki, İrəvanı Ermənistana versin, bağışlasın. Özü də nə vaxt? Müstəqillik elan olunandan bir gün sonra. Özü də yekdilliklə yox. Bu qərarın əleyhinə çıxanlar da olubdur, amma onların rəyi nəzərə alınmayıb. Bunu unutmaq olmaz və bunu bağışlamaq da olmaz...”* [4]. Tarix bunu bir daha göstərdi ki, kimsə hesab edibsə ki, İrəvanı orada yaşayan insanlardan xəbərsiz Ermənistana verməklə ermənilər kifayətlənəcək, böyük səhv edib.

*“Biz bu tarixi yaxşı bilirik, xatırlayırıq və azərbaycanlıların yaşadıqları o məntəqələrin sayını da yaxşı bilirik – 170-dən çox kənddə ancaq azərbaycanlılar yaşayırdılar. Mən o vaxtkı Ermənistanı nəzərdə tuturam, Ermənistan Respublikasını nəzərdə tuturam, 90-a yaxın kənddə azərbaycanlılar əksəriyyət təşkil edirdilər və bütövlükdə 300-dən çox şəhər və kənddə azərbaycanlılar yaşamışlar. Onların hamısı Ermənistandan zorla çıxarıldı, qovuldu, bir çoxları öldürüldü, onlara işgəncələr verildi”,* – deyə Prezident İlham Əliyev bu acı tarixi xatırlatdı [4]. Ermənilər əzəli Azərbaycan torpaqlarına köçürüldükdən sonra onlar Azərbaycan xalqının mədəni, mənəvi və memarlıq irsinə qarşı vandalizm siyasəti həyata keçiriblər. Ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var. Azərbaycan mədəniyyətinə və müsəlmanlara aid dini abidələrin, azərbaycanlıların məzar daşlarının yerlə-yeksan edilməsi, müasir Ermənistan ərazisində Azərbaycan türk toponimlərinin tamamilə dəyişdirilməsi faktları erməni vandalizminin bariz sübutudur. Ermənistandan bütün azərbaycanlılar qovulduqdan sonra bu respublikanın 16 rayonunda ümumilikdə 90 kənd adı, eləcə də onlarla hidronimin (çaylar, göllər, digər su hövzələri) adları dəyişdirilib.

Bəli, bu gün Şərqi Zəngəzurda və Qarabağda böyük quruculuq və bərpa işləri aparılır. İşğaldan azad edilən torpaqlarımızda infrastruktur yenilənir, yollar çəkilir, beynəlxalq hava limanları tikilir. Eyni zamanda barbar ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz bərpa olunur. Yeni şəhərlərin təməli qoyulur, "ağıllı kənd"lər salınır. Soydaşlarımız doğma yurd-yuvalarına qayıdır. Əlbəttə, böyük qayıdış təkcə Şərqi Zəngəzura, Qarabağa deyil, həm də Qərbi Azərbaycana gözlənilir. Azərbaycan addım-addım özünün tarixi məqsədlərinə doğru irəliləyir. Vətən müharibəsində qazanılan Qələbə son 200 illik tariximizin ən böyük Zəfəridir. Son iki əsrdə xalqımız daim torpaq itkilərinə məruz qalıb. Azərbaycan iki əsrdə ilk dəfə olaraq itirilmiş torpaqlarını geri qaytardı. Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qarşıda soydaşlarımızı Qərbi Azərbaycana böyük qayıdış gözləyir. Bu hədəfi Prezident cənab İlham Əliyev dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşündəki nitqində bəyan etdi: "*Əminəm ki, gün gələcək və Qərbi Azərbaycandan olan soydaşlarımız, onların yaxınları, uşaqları, nəvələri tarixi diyarımız olan Qərbi Azərbaycana qayıdacaqlar. Mən əminəm ki, bu gün gələcək və əminəm ki, Qərbi azərbaycanlılar böyük coşqu və həvəslə öz doğma torpaqlarına qayıdıb orada yaşayacaqlar*", – deyə dövlətimizin başçısı vurğulayıb [1]. Müqayisə aparan dövlətimizin başçısı bildirib: *"Bu gün Zəngilan rayonunun Ağalı kəndində yaşayan insanların böyük əksəriyyəti, eyni zamanda uşaqlar, gənclər onlar üçün doğma olan o torpaqları heç vaxt görməmişlər. Torpaq həsrəti və Vətən sevgisi onları oraya getməyə vadar etdi. Onların arasında, hətta Bakıdan, Sumqayıtdan gedənlər də az deyil. Yəni bu, xalqımızın xüsusiyyətidir, torpaq həmişə çəkir. Əminəm ki, Qərbi azərbaycanlılar da bu fikirlə, bu arzu ilə yaşayırlar*" [1]. Dövlət başçısı əvvəllər Qarabağın azərbaycanlı icmasına məxsus binanı Qərbi azərbaycanlılara hədiyyə etməklə həm də bu soydaşlarımızın da tezliklə tarixi torpaqlarına qaytarılacağına rəmzi işarə vurdu: *"Bütövlükdə, XX əsrdə xalqımızın çəkdiyi əzablar haqqında dünya ictimaiyyətinə daha geniş məlumat verilməlidir. Biz hər zaman həqiqəti deyirik. Azad edilmiş torpaqlara gələn 10 minlərlə xarici vətəndaş bu gün artıq öz gözləri ilə görür ki, xalqımız hansı vəhşiliklərə məruz qalıb. Bu gün orada gedən genişmiqyaslı quruculuq işləri bir daha xalqımızın iradəsini göstərir.* Beynəlxalq konvensiyaları özündə ehtiva edən *Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur.Biz bunu bilirik. Biz öz keçmişimizi yaxşı bilirik. Qərbi Azərbaycandan olan hər bir insan öz ulu babalarının yaşadıqları yerləri yaxşı bilir. İndi müxtəlif yollarla bu informasiyanı əldə etmək olar. Azərbaycanlıların yaşadıqları yerlərin əksəriyyətində heç kim yaşamır. Ermənistanda, bütövlükdə, indi depopulyasiya dövrü hökm sürür. İnsanlar*

*oradan gedir. Həm təbii artım yoxdur, eyni zamanda dözülməz siyasi vəziyyət, repressiyalar, faktiki olaraq diktatura və iqtisadi çətinliklər onları buna vadar edir. Bizim kəndlərimiz dağıdılır. Biz buna dözə bilmərik. Ona görə biz Qayıdış Konsepsiyası üzərində işləməliyik. Bu, çox sanballı sənəd olmalıdır"* [1].

İrəvana, Göyçəyə, Zəngəzura qayıdış arzularımız da gerçək olacaq. Buna isə xalqın inamı sonsuzdur. Çünki bunu təmin edəcək qüdrətli liderimiz, müzəffər sərkərdəmiz və güclü ordumuz var.

Bəli, bu, tarixin də, zamanın da tələbidir və Qərbi Azərbaycana qayıdış prosesi mütləq gerçəkləşdiriləcək.

**Ədəbiyyat siyahısı:**

1. Abdullayev Arzu. Qərbi Azərbaycana qayıdışın yol xəritəsi Tarixə baxış.29.12.2022.https://serqqapisi.gov.az/xeberler/qerbi-azerbaycana-qayidisin-yol-xeritesi-tarixe-baxis.
2. Bayramov İbrahim. Qərbi Azərbaycan: Tarixi həqiqətlər və ya Ermənistanın etnik təmizləmə siyasəti, Bakı: 2011, 288 səh.
3. Əliyarov Süleyman. 1982. "Dədəm Qorqud" kitabında "Boriağız", "Şiröküvəz" anlayışları // Türk dilinə dair etimoloji və tarixi-morfoloji tədqiqlər (elmi əsərlərin tematik məcmuəsi). Bakı, s.10-23.
4. Məmmədova Lətifə. Qərbi Azərbaycan qədim tarixi yurdumuzdur. 08 noyabr 2023-cü il. // https://medeniyyet.az/page/news/70499/Qerbi-Azerbaycan-qedim-tarixi-yurdumuzdur.html.
5. Səfərli Aynur. Qərbi azərbaycanlıların deportasiyası əslində onların soyqırımı idi! "Qərbi Azərbaycan folkloru: problemlər və perspektivlər" mövzusunda Beynəlxalq Elmi Konfrans. s.57-75.